Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Bakı kəndləri

Bakı-2018

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası

# Bakı kəndləri

*Respublika uşaq kitabxanaları
üçün tövsiyə biblioqrafiyası*

Bakı-2018

**Tərtibçi:** **Nazilə Tahirova**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Bakı kəndləri:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F. Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2018.- 51 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

# Tərtibçidən

Ümummilli lider Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan ötən on ildə yeni inkişaf mərhələsinə qədəm qoymuş, bir çox uğurlara nail olmuşdur.

Azərbaycan iqtisadi qüdrəti gündən-günə artan etibarlı tərəfdaş kimi dünyada yüksək nüfuza malik olan ölkəyə, regionun bütün siyasi və iqtisadi məsələlərinin həllində əvəzolunmaz iştirakçıya və əsas söz sahibinə çevrilmişdir.

Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmiz dinamik inkişaf edir, makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün əlverişli investisiya və rəqabət mühiti formalaşır.

Bu dövr, həmçinin Azərbaycan xalqının maddi rifahının və həyat səviyyəsinin xeyli yüksəlməsi, ölkənin şəhər və kəndlərinin, eyni zamanda paytaxt Bakının və onun qəsəbələrinin simasının dəyişməsi və yeniləşməsi ilə də səciyyələnir.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair qəbul edilmiş dövlət proqramlarının ("Bakı şəhərinin qəsəbələrinin “2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı”nın və “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın) icrası nəticəsində Bakının qəsəbə və kəndlərində uğurlu infrastruktur layihələri həyata keçirilmiş, kommunal və sosial xidmətlərin həcmi və keyfiyyəti daha da yaxşılaşmış, abadlıq işləri geniş vüsət almış, əhalinin həyat səviyyəsi daha da yüksəlmişdir.

Bu gün başlıca vəzifələrdən biri müvafiq dövlət proqramları çərçivəsində görülmüş işlərin davam etdirilməsindən və şəhərətrafı qəsəbələrin və kəndlərin sakinlərinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasından ibarətdir.

“2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” qarşıda duran vəzifələrin davamlı yerinə yetirilməsi məqsədi ilə hazırlanmışdır.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi “Bakı kəndləri” adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Nəşrlə bağlı rəy və təkliflərinizi F.Köçərli adına Respublika Uşaq kitabxanasına göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;

**E-mail:** info@clb.az.

## “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında həyata keçirilən inkişaf strategiyasının başlıca məqsədləri ölkədə davamlı və yüksək iqtisadi artıma və sosial rifaha nail olunmasıdır. Bunun üçün hazırkı mərhələdə iqtisadiyyatın şaxələnməsinin sürətləndirilməsi, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin olunması, ətraf mühitin qorunması, sahibkarlığın dəstəklənməsi, vətəndaşların gündəlik rahat həyatı üçün lazım olan bütün infrastrukturun yaradılması, o cümlədən səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman, əhalinin sosial müdafiəsi sahələrində keyfiyyətli xidmət göstərilməsi kimi başlıca fəaliyyət istiqamətləri reallaşdırılır, genişmiqyaslı işlər görülür. Ölkədə gedən inkişaf hər bir bölgəni, şəhəri, qəsəbəni və kəndi əhatə edir.

Son illərdə Bakı şəhərində və onun qəsəbələrində də tikinti-quruculuq işləri geniş vüsət almışdır. “Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı” və “2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”, eləcə də iqtisadiyyatın inkişafı ilə bağlı qəbul edilmiş müxtəlif sahəvi dövlət proqramları çərçivəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Bakı şəhərində də irimiqyaslı infrastruktur layihələrinin gerçəkləşməsinə, sahibkarlıq və investisiya fəaliyyətinin genişlənməsinə, əhaliyə göstərilən xidmətlərin, o cümlədən kommunal və sosial xidmətlərin həcminin və keyfiyyətinin daha da yaxşılaşmasına, abadlıq işlərinin sürətlənməsinə şərait yaratmışdır. Həmin proqramların icrası nəticəsində Bakı şəhəri, onun qəsəbə və

kəndləri yeni inkişaf mərhələsinə qədəm qoymuş, rəqabət qabiliyyətli və ixracyönümlü ən müasir müəssisələr yaradılmış, yeni iş yerləri açılmış, əhalinin həyat səviyyəsi daha da yüksəlmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Bakı şəhərinin və onun qəsəbələrinin inkişafının sürətləndirilməsi, burada yaşayan əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində işləri davam etdirmək məqsədi ilə **qərara alıram:**

1.”2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə birlikdə Dövlət Proqramının icrasını təmin edən tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə Dövlət Proqramında illər üzrə nəzərdə tutulmuş tədbirlərin hər il üçün Dövlət İnvestisiya Proqramı tərtib edilərkən nəzərə alınmasını təmin etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi:

3.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə əlaqələndirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 yanvar 2014-cü il.**

# Giriş

Bakı şəhəri ətrafında salınmış kəndlərin sayı ayrı-ayrı zamanlarda müxtəlif miqdarda göstərilirdi. I Pyotrun səfəri ərəfəsində Bakıda olmuş katolik missionerlərindən birinin yazdığına görə, Bakı əyalət şəhəridir və onun 34 kəndi vardır. 1870-ci il siyahısında isə Bakıda 41 kənd olduğu qeyd edilir: Bibiheybət, Keşlə, Əhmədli (bəzi mənbələrdə isə bu Qulam Mahmud, ya da Küley Mahmud da adlanır), Zığ, Hövsan, Türkan, Zirə, Qala, Binə (yaxud Kürkənd), Suraxana, Əmircan, Ramana, Balaxana, Sabunçu, Bülbülə, Dərnəgül, Binəqədi, Digah, Məhəmmədli, Zabrat, Fatmayı, Novxana, Saray, Masazır, Corat, Goradil, Pirşağa, Kürdəxana, Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Güzdək, Hökməli, Xırdalan, Xoca Həsən, Pirəköşkül, Biləcəri, Qobu. Bunlardan başqa 1865-ci ildə Bakı - Quba poçt yolu üstündə Mixail kənd adında təzə bir kənd də salınmışdı. Bu kənd o illərdə Bakı general-qubernatoru olmuş Mixail Petroviç Kolyubakinin şərəfinə belə adlandırılmışdı. Sonralar baxımsızlıq üzündən bu kənd dağılmışdı. 1813-cü ilin məlumatına əsasən o zaman Bakı kəndlərində aşağıdakı miqdarda əhali yaşayırdı: Bakının ən böyük kəndi olan Maştağada 582 nəfər, Sarayda 183 nəfər, Novxanada 202 nəfər, Fatmayıda 777 nəfər, Əmircanda 276 nəfər, Balaxanada 286 nəfər, Qalada 332 nəfər, Qobuda 735 nəfər,Buzovnada 263 nəfər, Mərdəkanda 94 nəfər, Şağanda 57 nəfər, Binəqədidə 738 nəfər, Qulam Mahmudda (Əhmədli) 77 nəfər. Bakı kəndlərində yaşayanların xeyli hissəsi tatlardı. Tatlar İrandan çıxmadırlar. Daha çox talışlara yaxın idilər, onlar pozuq fars dilində danışırdılar. Hələ sasanilər dövründə İranın cənubundan Şərqi Azərbaycana köçürülmüşdülər. İran höküməti İranın şimal hüdudlarının köçəri türk tayfalarından qorunmasında onlardan istifadə edirdi. Öz köçəri həyatları ilə öyünən türk tayfaları sonralar tatları öz hakimiyyətləri altına alaraq, onlara «tat» adını vermişdilər. Şah

Abbas da tatlardan cəngavər, döyüşkən adamlar kimi istifadə edərək, onlara hətta Şahsevən adını da vermişdi. Beləliklə, əsl şahsevənlərlə sonralar şahsevən adlandırılmış tatları bir-birindən fərqləndirmək lazımdır. Bir vaxt Fətəli xan öz xanlığını qorumaq üçün şahsevən tayfalarının bir hissəsini Quba torpaqlarına köçürmüşdü. Tatlar Azərbaycana köçdükdən sonra başqa xırda millət və tayfaları güclü təsirləri altına ala bilmişdilər. Onlara təkcə dillərini deyil, öz milli adət və ənənələrini də qəbul etdirmişdilər. Vaxtilə Massakit tayfası da (Maştağa kəndi əhalisi) bu yolla tatlaşdırılmışdı. Qədim zamanlardan bəri Azərbaycanda yaşayan yerli yəhudilər də (bunların Qafqaza nə vaxt köçdükləri barədə heç bir sənəd yoxdur) öz yaxalarını tatlaşmadan qurtara bilməmişlər. Ancaq o məlumdur ki, ərəblər Azərbaycanı işğal etdikləri zaman tatlar və yəhudilər İslam dinini qəbul etmişdilər. Bəziləri isə Musa dininə sadiq qalaraq «dağ cühudu» adı ilə tanınmışdı. «Qafqaz şöbəsinin əxbarı kitabında» (X cild, səh. 62) göstərilir ki, təxminən 1670 - 1671-ci illərdə onlar 21 min nəfər idi. Dağıstanda, Terek və Kuban oblastlarında, Bakı və Yelizavetpol quberniyasında yaşayırdılar. Onlardan çoxu, yəni 6,282 nəfəri Azərbaycanda - Qubada yaşayırdı. Sonralar Rusiyadan, Avropadan, Ukraynadan da Azərbaycana yəhudilər köçüb gəlmişdilər.

Bakıda tatların yaşadıqları kəndlər əsasən bunlardır: Balaxana, Suraxana, Zirə, Qala. Lakin Balaxana və Suraxana kəndləri istisna edilərsə, tatlar bu kəndlərdə öz hegemonluqlarını axıradək hifz edə bilməmişdilər. Bu kəndlərdə onlar müxtəlif tayfalarla qaynayıb, qarışmış və birgə həyat şəraitində öz dillərini yadırğamağa başlamışdılar. Məsələn, Zirə, Türkan, Qala kəndlərində hazırda ancaq qocalar tatca danışırlar. Balaxana və Suraxana kəndlərində isə tat dili dərin kök ata bilmişdi. Balaxanada bu axır illərə qədər uşaqlar Azərbaycan dilini ancaq məktəb skamyası arxasında öyrənirdilər. Bu onunla əlaqədardır

ki, Balaxanada, Suraxanada tatlar başqa tayfalarla az təmasda olublar. Vaxtilə tatlaşdırılmış massakitlər (indiki maştağalıların babaları) onların təsirindən xilas ola bilmişdilər. Bunun nəticəsindədir ki, Maştağada tat dilini bu yaxınlaradək ancaq qocalar bilirdilər. Bakı kəndlərinin adları da əsasən tat dili əsasında yaranıb.

**Maştağa kəndi.** Maştağa Bakının ən böyük kəndidir. 1813-cü il məlumatına görə həmin illərdə bu kənddə 582 nəfər əhali yaşayırmış, daha sonra, XIX əsrin əllinci illərində Bakı qəzası təkcə bir uçastokdan - Maştağa uçastokundan ibarət imiş ki, bu da qırx kəndi əhatə edirmiş. Maştağa (və ya Məşqətə) toponimi vaxtilə burada məskən salmış massakit tayfasının adı ilə bağlıdır. Eramızdan 5 əsr əvvəl yaşamış herodot massakit tayfaları barədə xəbər verir. Onlar ilk əvvəllər türk tayfalarının beşiyi olan Türküstanda yaşayırdılar. Sonralar Aralıq və Xəzər dənizinin şimalını və Qırğızıstan torpaqlarını işğal etmişdilər. Bir müddətdən sonra yeni türk tayfaları tərəfindən sıxışdırılan massakitlər Azərbaycana yayılmışdılar. A.Bakıxanov özünün «Gülüstani-İrəm» kitabında Maştağa kəndi əhalisinin massakit-lərdən qaldığını təsdiq etmişdir. Abşeronda tatlar arasında yaşayan massakitlər, tatlaşaraq öz doğma dillərini unutmuşdular. Buna da əsas səbəb uzun müddət İran hakimiyyəti altında olmaları idi. Keçmiş əsrin axırınadək vəziyyət belə idi. Sonralar tat dili sıxışdırılıb aradan çıxarıldı. İndi Maştağada tat dilini bilən tək-tük adam tapılar, bəlkə də heç yoxdur. Maştağa bir müddət Bakı xanlarının babası olan yüzbaşı Dərgahqulu xanın iqamətgahı olmuşdur. Dərgahqulu xanla başlayan yüzbaşılar nəsli sonralar Bakının ictimai həyatında böyük rol oynamışlar. Onlar əslən İrandan gəlmə idilər. 1592-ci ildə Gilan xanı Əhməd xanın şah Abbas birincinin əleyhinə olan uğursuz üsyanından sonra bu nəsil Gilan mühacirləri ilə birlikdə Şirvana gəlmişdilər. Onların içərisində ən görkəmli sərkərdə Dərgahqulu xan idi. Bakı

yüzbaşıları nəsli Abşeronun bir neçə kəndini və o cümlədən Ramananı da ələ keçirərək, orada məskən salmışdılar. Vaxtilə A.A.Bakıxanov da bunu təsdiq edirdi.

Bakı xanlarından Mirzə Məhəmməd xan ikinci ilə Hüseynqulu xan arasında xanlıq üstündə mübarizə getdiyi illərdə Hüseynqulu xan Bakıda, Mirzə Məhəmməd xan isə Maştağada yaşamışlar. Tarixdən məlum olduğu uzrə Mirzə Məhəmməd xan ikinci Maştağada özünə möhkəm bir qala da tikdirmişdir. Təəssüf ki, indi bu qaladan heç bir əsər qalmamışdır. Tarixi mənbələrin göstərdiyinə görə maştağalılar çox zəhmətkeş və mərd olmuşlar. Onlar başlıca olaraq, əkinçilik, maldarlıq və bağçılıqla məşğul olurlarmış.

«Gülustani-İrəm» kitabında Bakıxanov maştağalıların massakitlərdən törədiklərini təsdiq edir. Maştağa sözünü səhvən Maştağı yazırıq. Bakı kəndlərindən bəzilərinin adları kimi Maştağa sözündəki A saitinin I ilə əvəz edilməsi rus dilinin təsirindən əmələ gəlib. Biz bu tələffüzə ancaq XIX əsrin ortalarından rast gəlirik. Həmçinin Balaxana və Suraxana sözləri də rusların tələffüz etdiyi şəkildə, yəni Balaxanı və Suraxanı kimi yazılır. Əslində iki sözdən əmələ gəlmiş bu adlar xana sözü ilə bitir.

**Buzovna**- Maştağa ilə qonşu kənddir. Burada yaşayanlar əsasən əkinçilik və bostançılıqla məşğul olurlar. Vaxtilə balıqçılıqla da məşğul olublar. Yerlilər öskürəyə qarşı burada buzovna adlı otdan istifadə etdikləri üçün kəndin adı da Buzovna qalmışdır. 1861-ci ildə çap olunmuş «Qafqaz şöbəsinin qeydləri» (rus dilində) kitabında Buzovna kəndi «Bezouqnan» adlanır.

Maştağadan sonra Bakının ikinci böyük kəndi **Balaxanadır.** Yuxarıda deyildiyi kimi Balaxana xalis tat kəndidir. Kəndin adı iki sözdən əmələ gəlmişdir: Bala (yuxarı, hündür deməkdir) və xana (ev) sözlərindən. Balaxana qədim zamanlarda karvansara-ların giriş qapısı üstündə olan kiçik otağa deyərdilər. Bunlar

yarım mərtəbə şəklində olardı (mezonin, yaxud antrosol). Görünür ki, o zamanlar Balaxanada mərtəbə yarım evlər tikildiyindən kəndin adı da Balaxana qalmışdı. 1813-cü ilin məlumatına görə o zamanlar bu kənddə 286 nəfər əhali yaşamışdır. Sonralar Bakının başqa kəndlərinə nisbətən Balaxananın əhalisi sürətlə artmağa başlayır. Təbiidir ki, bu ancaq Balaxanada neft yataqlarının tapılması ilə əlaqədar idi. Balaxanada qədim tikililərdən yalnız dörd künclü bir qala olmuşdur. Bakı xanları arasında gedən mübarizə illərində Bakı xanı Mirzə Məhəmməd ikinci bir müddət bu qalada yaşamışdır. İndi o qaladan bir daş belə qalmayıb. Görunür ki, sonralar neft quyularının divarlarını möhkəmlətmək üçün qalanın daşlarından istifadə edilmişdir. Balaxana kəndinin yaxınlığında Qırməki deyilən bir yer vardır. Bunu kənd adlandıranlar da vardır. Əslində burada heç bir kənd olmayıb. Bu yerdə neftin torpaqla qarışıb möhkəmlənməsindən torpağın üstündə qalın möhkəm təbəqələr əmələ gəlmişdir ki, bundan Bakının yastı damlarını yağışdan qorumaq üçün istifadə edirdilar. Bu qır idi. Yer də ona görə Qırməki adlanırdı ki, buradan qır çıxarırdılar. Qırməki qır məkanı mənasındadır. Uzun illər müddətində Qırməki şəklinə düşmüşdür.

Əhalisinin tərkibinə görə tat kəndi hesab edilən **Suraxana** kiçik bir kənd olsa da öz ağ nefti və daimi yanar odları ilə bütün Şərqdə şöhrət tapmışdı. Kəndin adı da iki sözdən düzəldilmişdir. Sürx - qırmızı və xana-ev. Bəs qırmızı sözü haradan əmələ gəlib? İnqilabın ilk illərində Suraxana atəşgahını tədqiq etmiş V.Sısoyev atəşgahdakı hücrələrin divarlarını yoxlarkən qəribə bir mənzərə ilə rastlaşır: Bir neçə hücrənin uçub-tökülmüş malası altında qırmızı rənglərlə çəkilmiş ornamentlər görür. O biri hücrələrdə də eyni oramentlərə təsadüf edir. Bu qırmızı suvaq divarlara vurulmuş ilk suvaq idi. Sonralar görünür, təmir zamanı birinci suvağın üstünə bir neçə dəfə təzə suvaq vurulmuş və beləliklə ilk qırmızı suvaq altda qalmışdır. İlk zamanlarda hücrələr hələ

ümumi bir hasarla birləşməmiş və ayrı-ayrı otaqlar şəklində mövcud idilər. O da bizə məlumdur ki, suraxanalılar soyuq qış aylarında qazla isidilən bu otaqlara köçür, havalar qızanadək bu hücrələrdə yaşayırdılar. Ehtimal etmək olar ki, o zamandan bu mənzillərə yerlilər tərəfindən Sürx-xana (qırmızı ev) adı qoyulmuş və kənd də bu adla adlandırılmışdır. Belə bir fərziyyə vardır ki, guya Suraxana adı qədim Hindistanın sanskrit dilində olan Surak-şanı (relikviya deməkdir) sözündən əmələ gəlmişdir. Əgər Balaxana, Novxana, Kürdəxana kimi kənd adları olmasaydı, bu fikirlə bəlkə də razılaşmaq olardı. Lakin adları çəkilən ətraf kəndlərin mövcud olması Suraxana sözünün də iki sözdən düzəldiyini söyləməyə haqq verir. Qədim zamanlardan suraxanalılar əhəng yandırmaqla məşğul olmuşlar. İnqilabdan qabaq bişirilən əhəngləri eşşəklərə yükləyib, Bakının ətraf kəndlərində satırdılar. Kəndin şimal-şərqində əhəngbişirən karxanalar indi də mövcuddur.

Suraxanadan şərqə tərəf bir eniş başlayır. Bu enişin adı Künəsəngidir. Mənası daş uçurum deməkdir. İndi buradan rahat şose yolu keçir. Enişin qurtardığı yerdən başlayan düzənlik isə Təmənis düzü adlanır. Bu düzün bir ucu Binə kəndinədək, o biri ucu isə şimalda Maştağayadək uzanır. Təzə Suraxana, Binə kəndi və habelə şəhər aerodromu Təmənis düzündə yerləşir. Künəsəngi enişinin başqa bir adı vardır: usta-şagird, Suraxana enişi ilə Təmənis düzünə enəndə diqqət yetirilərsə, sağ tərəfdə iri bir qaya parçası üzərində tikilmiş kiçik bir soməə görmək olar. Bu soməə bir əfsanə ilə əlaqədardır. Guya usta bir bənnanın fərasətli bir şagirdi varmış. Bir gün onlar yarışa girişirlər. Yarışın şərti bu imiş ki, hərə bir soməə tiksin və onun möhkəmliyi illərin sınağından çıxsın. Ustanın tikdiyi soməə bir müddətdən sonra uçur, şagirdin qaya parçası üzərində tikdiyi soməə isə bu günədək durur.

Mərdəkana gedən yolun sağında yerləşən **Binə** kəndi Bakı kəndləri içərisində ən təzəsidir. Bu kənd qədim Kürkənd kəndinin xərabələri yanında salınmışdır. Kəndin yeri vaxtilə nardaranlıların binələri olub. Bir müddətdən sonra isə yaşayış məskəninə çevrilmişdir. Sonralar Kür qırağından, xüsusilə Lənkərandan buraya xeyli adam köçüb gəlmiş və burada yerli nardaranlılarla qaynayıb, qarışmışlar. Abşeron burnunun cənubunda isə yuxarıda dediyimiz kimi Türkan, Zirə, Qala və Hövsan kəndləri yerləşir.




**Qala kəndi:** Qala kəndinin adı bilavasitə «qala» ilə əlaqədardır. Toponimin ilk baxışda belə sadə izahı bir tərəfdən tarixi-arxeoloji faktlara, digər tərəfdən isə xalq etimalogiyasına əsaslanır. Yerli yaşlı sakinlərin bəzisi kəndin adını «mühafizə olunan yer» kimi mənalandırır, başqa sözlə alınmaz, məğlubedilməz yer, kənd. Digər qism isə sözün məhz birbaşa mənası ilə, yəni «qala» ilə əlaqələndirir.

Tarixi dəlillər ikinci gümanı daha çox təsdiqləyir. Belə ki, burada XIV və XVII əsrin birinci yarısında inşa olunmuş qala istehkam və müşahidə qalaça tikililəri həmin ehtimalı həqiqət kimi qəbul etməyə üstünlük verir. Qeyd edək ki, XIV əsrə məxsus bu qala kəndin ən hündür yerində qaya üzərində inşa

edilib. Paralel elmi tutuşdurmalar göstərir ki, bu qala konstruktiv memarlıq, həmçinin inşaat xüsusiyyətlərinə görə Mərdəkan, Şağan, Ramana və s. kəndlərdəki dördkünc qalalar tipinə aiddir. Yaşlı sakinlərin dediyinə görə, qalanın dibində zirzəmiyə oxşar yer olubmuş; guya burada təhlükə vaxtı 1000-1500-ə yaxın adam mühafizə oluna bilib. Bu dəqiq olmasa da Qalanın qalası əzəmətli olub. Sonradan qala dağıldığı üçün XVII əsrdə qala daşlarından bürclərdən birinin yerində məscid tikilib. Həyətində yeraltı yollar, kommunikasiya sistemləri aşkarlanıb. Kənd əhalisi ətrafdan XIV-XV əsrlərə məxsus mis pullar tapıb. Nadir şahın ruslarla müharibə apardığı dövrdə kənddə tikilmiş müşahidə qalasının yeri indi məlum deyil. Çox güman ki, o dairəvi formada olub. Yeri gəlmişkən, XVII əsrin ikinci yarısına kimi mənbələrdə kənd Nadiri-Qala adlanıb.

Qalada ən qədim yaşayış məskəni tunc dövrünə aiddir. İlk tapıntılar kəndin cənub hissəsində əldə edilib. Burada müxtəlif daş tikili qalıqları, saxsı qırıntıları və üzərində rəsmlər olan daşlarla zəngin qədim yaşayış məskəni aşkar edilib. Ümumiyyətlə Qala kəndində və ona bitişik olan ərazidə 215 memarlıq və arxeoloji abidə mövcuddur. Burada e.ə. III minilliyə aid tarixi mühit qorunub saxlanılır. Qala kəndinin ərazisində e.ə III minillikdən XX əsrə qədər tarixi əhəmiyyət daşıyan memarlıq abidələri - 5 məscid, 3 hamam, 4 ovdan, yaşayış evləri, kənd təsərrüfatı təyinatlı binalar, sərdabələr, məqbərələr, kurqanlar, qəsrin qalıqları və s. mövcuddur. Beş min illik tarixə malik olan Qala kəndində bir neçə məhəllə olub. Bunlardan Tərəkəmə, Balaverdi, Hacı Ramazan, Çəmbərəkənd bu günədək qalıb.

Qədimdə bu kənddə bir sıra sənət sahələri inkişaf edib. Onlardan biri dulusçuluq olub. Dulusçuluqla bağlı Qalada arxeoloji qazıntılar zamanı aşkar edilmiş saxsı məmulatlar da bədii cəhətdən çox maraqlıdır. Azərbaycanda dulusçuluq ənənələrində iki növ dulusçu çarxı vardı - əl çarxı və ayaq çarxı.

Dulusçunun əsas aləti daraq, dulusçu bıçağı, sim, bel və s. idi. Həmin emalatxananın biri məhz kompleksdə yaradılıb. Eləcə də ağacdan asılmış nehrə, nalbəndin «iş otağı», qədim hanalar, xalça toxunuşu zamanı istifadə olunan alətlər - həvə, kirgit, qayçı, qarmaqlı bıçaq diqqət çəkir. Burada aşkarlanmış qədim evlərin hamısının yanında at-dəvə bağlamağa halqalı daş var. Eləcə də Şor gölün ətrafında tapılmış müxtəlif ölçülü dəyirman daşları da kompleksin dəyərli eksponatlarındandır.



Qala kəndinin əhalisi üçün ənənəvi təsərrüfat sahələrindən biri həmişə heyvandarlıq, xüsusilə də qoyunçuluq olub. Xüsusi bəslənmiş cins qala qoyunları çox məşhur olub. Əhali at və dəvə saxlayıb. Burada keçirilən at yarışlarına tamaşa etmək üçün tamaşaçılar uzaq məsafələr qət edirmiş.

Bütün ərazisi qoruq olan Qalada 2008-ci ildən açıq səma altında Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi yaradılıb. Kompleksin ərazisində Abşeron yarımadasında aşkar edilən arxeoloji, memarlıq abidələri toplanılıb və bərpa olunub. Ərazisi 1,2 hektar olan muzey kompleksində Azərbaycanın tarixi incilərini seyr etmək və daha yaxşı anlamaq üçün əlverişli şərait var.

**Türkan kəndi:** Türkan qəsəbəsi Bakı kəndləri içərisində ən qədim tarixə malik olanlardandır.

10000-dən çox əhalisi olan Türkan qəsəbəsi paytaxtdan 35 km. aralıda yerləşir. Türkan kəndində iki qəbiristanlıq mövcuddur. Bunlardan biri yeni qəbiristanlıqdır ki, burada olan ən qədim məzarın yaşı bir əsrə bərabərdir. Digər qəbiristan isə daha qədimdir. Oradakı qəbirüstü daşların üzərində şəkilli yazılar var ki, bu da abidələrin çox böyük yaşa malik olmağına dəlalət edir.

1859-1864-cü ilə olan məlumata əsasən Bakı quberniyasının Bakı qəzasının Türkan kəndində 127 evdə 332 nəfəri kişi, 290 nəfəri qadın olmaqla 622 nəfər şiə Azərbaycan tatarı yaşayırdı.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumata əsasən Türkan qəsəbəsinin 11.3 min nəfər əhalisi vardır.

**Hövsan kəndi:** Bu kəndin Hövsan adlandırılması vaxtilə bu yerdə mövcud olan iki böyük su hovuzu ilə əlaqədardır. Hövsan hovuzlar deməkdir. Əhalisi əsasən bostançılıqla məşğul olub. Burada yetişdirilən uzunbaş soğanın şöhrəti hər tərəfə yayılmışdı.

Hövsan qəsəbəsi Abşeron yarımadasının cənubunda, dəniz sahilində yerləşir. Hövsan kəndi Bakı şəhərinin qədim yaşayış məskənlərindən biridir və 1793-cü ildə yaradılıb. 2 avqust 1966-cı ildə o qəsəbə statusu alaraq, Bakı şəhərinin inzibati ərazisinə daxil edilmişdir.

Qışı çox da sərt olmayan mülayim təbiətə malikdir. Mövsümə görə güclü Xəzri küləkləri əsir. Yaz və yay mövsümlərində dəniz kənarında mülayim və sərin havaları keçir. Yayı əsasən küləkli və sərin keçir.

**Zirə kəndi:** Abşeron burnunun qurtaracağında salınmış axırıncı yaşayış məskənidir. Vaxtilə buradan dəniz sahilinədək uzanan cəngəlliklərdə vəhşi heyvanlar yaşayıb. Buralar o zaman Şirvanşahların ovlaq yerləri idi. Şahlar ova başlamamışdan əvvəl indiki Zirə kəndinin yerində düşərgə salırlarmış. Ov əmiri öz

xidmətçiləri ilə birlikdə heyvanları hürküdərək, aşağılara, burnun ensizləşdiyi yerlərə qovarlarmış ki, onları ovlamaq asan olsun.
Zirə sözünün etimologiyasını öyrənməkdə Bakı körfəzi akvatoriyasında mövcud olan adalar (ərəbcə-cəzirələr) köməyə çatır. Məlumdur ki, akvatoriyada olan adalardan Nargin və Vulf adaları I Pyotrun qoşunları Bakıya gələnədək başqa cür adlanırdılar. Narginin adı Böyük Zirə, Vulf adasının adı isə Kiçik Zirə idi. Pyotr qoşunlarının dənizlə Bakıya səfəri zamanı dənizçilər bu adaları görüb təəccüblənirlər. Çünki o zaman Xəzər dənizinin xəritəsində bu adalar göstərilməmişdi. I Pyotr hər iki adanın Fin körfəzində olan Nargin və Vulf adalarına oxşarlığını görüb, onları da eyni adla adlandırmışdı. Fin körfəzindəki Nargin adası hazırda Nayssar adlanır.

Beləliklə, bu adaların adlarına əsaslanaraq "zirə" sözünün necə yarandığı barədə qəti fikir söyləmək mümkündür. Adaların (cəzirələrin) adlarını canlı dildə asan tələffüz etmək məqsədilə, görünür ki, "cəzirə" sözündəki ilk "cə" hecası atılmış, təkcə "zirə" qalmışdır. Adaların adları da sadəcə olaraq "zirə" kimi tələffüz olunmağa başlayıb. Buna əsasən Zirə kəndinin adının da necə yarandığını söyləmək mümkündür. Ancaq burada haqlı olaraq, belə bir sual meydana çıxa bilər. Zirə kəndi ki, cəzirə, yəni ada deyildir. Doğrudur, Zirə kəndi cəzirə deyildir, o nimcəzirədə, yəni yarımadada yerləşir. Demək burada bir heca deyil, "cə" hecası ilə birlikdə bütöv bir söz, yəni "nim" sözü də atılmışdır. Nimcəzirədən təkcə zirə qalmışdır. Sözlərin belə ixtisarla deyilməsi o dövrlərdə bakılılar üçün çox səciyyəvi idi. Məsələn, "Səbayil" sözündən təkcə «Bayıl» qalmışdır. Bakılıların məişətində də belə hallara tez-tez rast gəlmək olur. Zirənin və habelə Zirədən sahilədək uzanan yerlərin vaxtilə cəngəllik olduğu adama qəribə görünə bilər. Halbuki həqiqətdə də belədir. XVIII əsrin əvvəllərində Bakı şəhərinin gerbində rəsm edilmiş pələngə oxşar heyvan şəkli də bu dediklərimizə dəlil ola bilər. Sonralar

Abşeronda yaşayış məskənlərinin artması ilə bu cəngəlliklər qırılmış, vəhşi heyvanlar da tələf edilmişdir.

Zirədən şimal-şərqdə **Şüvəlan** yerləşir. Bura çox sonralar məskən yerinə çevrilmişdir. Buna görədir ki, keçən əsrin əvvəllərindən heç bir yerdə Şüvəlan yaşayış məskəni kimi qeyd edilmir. O zamanlar Şüvəlan otlaq yerləri olub. Sonralar burada pambıq əkilməyə başlayıb

1924-cü ildə yazıçı Seyid Hüseyn Bakı kəndləri barədə yazdığı məqaləsində Şüvəlanı belə təsvir edirdi: "Burada bəzi əski binaların və qalaların xərabələri mövcuddur ki, bunlar Şüvəlan bağlarının çox qədim zamanlardan bəri bağ və yaylaq olduğunu, orada heç bir kənd olmadığı halda ətraf kəndlilərin gəlib, yayda heyvan və mal-qaralarını otardıqlarını qəti surətdə söyləmək mümkündür. Qoca kişilərin söylədiyinə baxılarsa, Şüvəlan vaxtilə otlaq yeri olmuşdur".

**Şüvəlan toponimi haqqında.** Qədim zamanlarda Şüvəlanda bahar aylarında o qədər gölməçə yaranarmış ki, burada dəniz quşları, vəhşi ördəklər əlindən tərpənmək olmazmış. Bəziləri buna əsaslanaraq, iddia edirdilər ki, Şirvanşahlar tez-tez buraya ova gələrlərmiş. Guya o vaxtdan bu yer "Şaholan" adlanmış və zaman keçdikcə "Şüvəlan"a çevrilmişdir. Bu ehtimal əlbəttə, əsassızdır. Çünki tarixdən bizə məlumdur ki, Şirvanşahların, onlardan sonra isə Bakı xanlarının ov məskəni Zirə tərəf olmuşdur. Bundan başqa Bakı kəndlərinin adları bir qayda olaraq ancaq fars, yaxud tat dili tərkibi ilə düzəldilirdi. Əslində isə "Şüvəlan" sözü buranın coğrafi şəraiti ilə əlaqədar olaraq, yaranmışdır. Şüvəlanda olanlar yəqin fikir veriblər ki, bu yerdən dənizə tərəfə enişlər başlayır, həmin enişlərə görə də bu yer Şüvəlan adlanır. Farsca "şivə" sözünün mənası eniş deməkdir. Həmin sözün axırına məkan bildirən "lan" hecasını artırmaqla Şüvəlan sözü yaranmışdır. Vaxtilə içmək üçün ən yararlı su Mərdəkanla Şüvəlanda idi. Burada su qayanın altından çıxırdı.

Buna görə də burada çoxlu pambıq əkilərdi. Abşeronda əkilən pambığın çox hissəsi Şüvəlanın hesabına düşürdü. Pambıqla birlikdə bu yerdə zəfəran da əkilərdi. Şüvəlanın təmiz iqlimi, şirin suyu sonralar adamların bu yerlərdə məskən salmalarına səbəb oldu. Xüsusilə XIX əsrin ortalarından başlayaraq, bakılılar bu yeri özlərinə yaylaq yeri seçdilər. Hələ Bakı xanlıqları dövründə burada salınmış üzüm bağlarının şöhrəti tarixdən də bizə məlumdur. İndiki Elmlər Akademiyasının Dendroparkının yeri vaxtilə xan bağı olub. Bakı milyonçularından Murtuza Muxtarov bu yeri alanda bağın dörd dövrəsində kiçik bürclər varmış. Keçən əsrin axırlarından başlayaraq, bu yerlərdə bağ salmaq qızğın bir ehtirasa çevrildi. Bakı milyonçularından Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Səfərəliyev, İsa bəy Hacınski və başqaları sanki bəhsə girişərək, bir-birindən gözəl villalar tikdirdilər. Burada torpağın qiyməti birə üç qat bahalaşdı. Varlılarla ayaqlaşa bilməyənlər isə sal qayalıqların üstünə torpaq tökdürərək, bağ salırdılar. Şüvəlan yaxınlığında Ağdaş deyilən yerdən çıxarılan möhkəm ağ daşlar tikilən binalara yaraşıq verirdi. Varlıların bağları bir-birindən əzəmətli daş darvazalar, arkalarla fərqlənirdi. Bu bağlarda tikilmiş dərin, nəhəng hovuzlarda bəzən varlılar qayıqla üzürdülər.



Sanctuary of "Mir Movsum Aga", Shuvelan, Azerbaijan

“Ət Ağa” kimi tanınan seyid övladı bakılı Mir Mövsüm Ağa Şüvəlan qəbiristanlığında dəfn edildikdən sonra Şüvəlan müqəddəs yer sayılır. Qəbrin üstündə içərisi ayna qırıntıları ilə göz qamaşdıran əzəmətli bir günbəz inşa edilmişdir. O vaxtdan qəbri ziyarətə gələnlərin ardı-arası kəsilmir. Ziyarətə gələnlərə səliqəli xidmət də təşkil edilmişdir. Ziyarətgah xidmətinə başçılıq edən Hacı Nizamın səyi ilə qəbrin yaxınlığında böyük xidmət binası inşa edilmişdir. Burada dəstəmaz almaq, namaz qılmaq, uzaqdan gələnlər üçün istirahət etmək və hətta gecələmək üçün səliqəli-sahmanlı otaqlar vardır. Binanın yeməkxanasında yetimxanaların uşaqlarına tez-tez pulsuz yeməklər verilir.

**Mərdəkan kəndi.** Böyük rus şairi Sergey Yesenin İrana gedərkən yolunu Mərdəkandan salır. O, kəndi gəzərkən tez-tez başıbağlı qadınlara rast gəlir. Buraların İran ola biləcəyini düşünən S.Yesenini Mircəfər Bağırov yoldan çıxarır. M.Bağırov böyük rus şairinin Mərdəkanda qalıb dərs deməsini istəyir. Ona görə də onu aldadaraq buranın İran olduğuna inandırmağa çalışır. Beləliklə, S.Yesenin uzun müddət Mərdəkanda qalır.

Bu əhvalatı bizə S.Yeseninin Mərdəkandakı ev-muzeyində olarkən Hacı Miraqil adlı kənd sakini danışdı.

Xəzər dənizi sahilindəki bu kurort kəndinin əhalisi 15760 nəfərdir. Qədim yaşayış məntəqələrindən olan Mərdəkan Abşeronun xalq memarlığı mərkəzlərindən olub. Strateji mövqedə yerləşən Mərdəkanda XIII-XIV əsrlərə aid möhtəşəm müdafiə qalaları var. Dəniz kənarı iqlim kurortu, pansionat, sanatoriyalar, kurort poliklinikası hər il yerli və xarici turistlərin bura axınına səbəb olur.

Mərdəkanın adı “Mərdlər məkanı” kimi tərcümə olunur, bu da yaşayış məskəninin qədim Mard tayfaları tərəfindən salınmasına işarədir. Mardların adına isə ilk dəfə Qafqaz Albaniyasında yaşayan tayfaların sırasında rast gəlinir. Müxtəlif xarici səyyahların salnamələrində hələ qədimdən xalq memarlığının

mərkəzi sayılan Mərdəkan haqqında məlumatlar var. Bakı milyonçularından Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqalarının burada bağları, yaraşıqlı binaları olub. Məşhur rus şərqşünası İ.N.Berezin “Abşeron yarımadasına səyahət” adlı əsərində Mərdəkanda olmasından, bu kəndin tarixi-memarlıq abidələrinin qeyri-adiliyindən yazıb. Tədqiqatçılar bildirirlər ki, Herodot, Strabon kimi səyyahların da Mərdəkan haqqında yazıları olub.

Kənddə yerləşən məşhur Mərdəkan Dendrarisi haqda eşitməyən çətin olar. Parka baş çəkmədən geri qayıtmaq qəbahət olardı. Ziyarətçilər cənnət misallı bu yerə əsasən yay aylarında gəlməyə üstünlük verir. Məlumat üçün bildirək ki, əraziyə giriş haqqı əcnəbilər üçün 4, yerli əhali üçünsə 1 manatdır. Mərdəkan dendrarisi 1890-1920-ci illərdə xeyriyyəçi və neft milyonçusu Murtuza Muxtarovun bağı olub. Dahi rus şairi Sergey Yeseninin ev-muzeyi də bu parkda yerləşir. Hazırda burada 1800-ə yaxın bitki növü, 28 növ heyvan və əylənmək üçün katamaranlar, istirahət guşələri var.

Parkda italyan qotikası üslubunda tikilmiş, bir əsr yaşı olan qədim bina da var. Bu bina bir çox kinorejissorların diqqətini çəkib, “Arşın mal alan”, “Qorxma, mən səninləyəm” və bir neçə başqa filmlərdən kadrlar məhz burada çəkilib. Dendrari parkında banket zalı, 20-yə yaxın qonaq otağı, səyahətə gələnlər üçün otaqlar, elmi laboratoriyalar, süni şəlalə, su quyusu, qayıqla gəzinti üçün göl də var. Ərazidə faydalı olan evkalipt, qalibiyyət, dəfnə ağacı, həmişəyaşıl, ağ çiçəkli kol bitkisi olan mərsin, Avropa zeytunu və s. ekzotik bitkilərə rast gəlinir. Arizona sayağı və üfiqvarı kiparislər, Hələb və italyan şam ağacları, ispan sarı çiçəkli çöl bitkisi olan naz, bir çox cins bitkilər ölkəmizin şəhər və kəndlərinə məhz buradan yayılıb. Qeyri-adi aurası olan Dendrari Abşeron nəbatat aləminin tacı hesab edilir.



Mavi Xəzərin qoynunda yerləşən və Bakının digər kəndlərinə baxanda yaşıllıq cəhətdən bəxti gətirən Mərdəkanda çoxlu istirahət və əyləncə mərkəzləri fəaliyyət göstərir. Kəndin mərkəzindəki məşhur "Qaranquş" sanatoriyası da onlardan biridir. Orada olarkən sanatoriyada təmir-tikinti işlərinin aparıldığının şahidi olduq. Bundan başqa, Mərdəkanda "Heydər məscidi"ndə də yenidənqurma işləri aparılırdı.

Kəndin mərkəzindəki məscid 1893-cü ildə yerli sakin Heydər Almazov tərəfindən tikdirilib. Heydərin arvadı rus olduğuna görə onu "rus Heydər" deyə çağırırmışlar. Məhz məscid tikdirəndən sonra bu ləqəb üzərindən götürülüb.



Mərdəkanda qədim hamamlar çox olsa da onlar baxımsız qalıb. Şirvanşahlar dövrünə aid olan Xanbaba hamamı 1482-83-cü illərdə yerli əhali tərəfindən inşa olunub. Ziley hamamını XIX əsrin əvvəllərində mömin və xeyirxah bir mərdəkanlı qadın tikdirib. Bu hamam qadınlar üçün nəzərdə tutulubmuş.

Məşhur mesenat və neftxuda Hacı Zeynalabdin Tağıyevin 1885-1924-cü illərdə yaşadığı ev Mərdəkanda hələ də

qalır. Kənddə Qumluq, Qala, Xərmən, Qoyunbulağı, Seyidlər məhəllələri var. Qədimdə mərdəkanlılar Uzundərə adlanan yerdən taxıl anbarları kimi istifadə edirmiş. Mərdəkanda Pir Həsən adlanan ziyarətgah eyniadlı kənd sakininin ismini daşıyır. Ziyarətgah milyonçu Murtuza Muxtarov tərəfindən 1907-ci ildə tikdirilib. Onu da qeyd edək ki, H.Z.Tağıyevin, onun qızı Sara xanımın məzarları məhz Pir Həsəndə yerləşir.



Mərdəkanda orta əsrlərə məxsus əzəmətli və möhtəşəm "Dördkünc qala" 1187-ci ildə inşa olunub. Qalanın tikintisi zamanı balıqqulağı və əhəngdən, yumurta sarısından, keçi və dəvə yunundan istifadə edilib. Hündürlüyü 22 metr, 76 pilləsi, 6 otağı olan qala müdafiə məqsədilə tikilib. Böyük müharibələr nəzərə alınaraq qalanın içində ərzaq anbarı kimi istifadə etmək üçün 108 quyu qazılıb. Sonra yeraltı tunellər vasitəsilə digər qalalarla əlaqə yaratmağa çalışıblar.

**Əmircan kəndi**. Bakının qədim kəndlərindən biridir. Kəndin Əmircan adlandırılması isə XIV əsrdə Şirvanşahlar dövrünə aiddir. O zaman Şirvanşahlar tərəfindən buraya Nizaməddin adlı



birisi əmir təyin edilmişdi. O Əmirhac adlanırdı. Əmirhacın əsas vəzifəsi Məkkəyə həccə gedənlərə başçılıq etmək idi. Nizaməddin Əmirhac adı ilə yerli əhali içərisində böyük şöhrət qazanmışdı. Hazırda bu kənddə qalmış qədim Nizaməddin məscidi də 1329-1330- cu illərdə tikilmişdir. Məscidin üstündəki kitabədə aşağıdakı sözlər yazılmışdır: "Bu Allah evinin tikilməsini həşəmətli

Fəxrəddin oğlu əmir Nizaməddin Əmirhac əmr etmişdir".

Əmircandakı qədim abidələrdən biri də Əmirhacın türbəsidir. Türbə kiçik tağlı bir binadan ibarətdir. Bu kənddə A. Bakıxanovun yaşadığı evin uçuq hasarı qalmışdır. Kənddəki iki minarəli əzəmətli məscidi Bakı milyonçusu və əslən əmircanlı olan Murtuza Muxtarov tikdirmişdir. Məscidi məşhur memar-usta Mirzə Məlik Abbas oğlu tikmişdir. Əmircanın əsl qədim adı Xilədir. "Xilə" bəlkə də bu yerlərdə məskən salmış tayfanın adı ilə bağlıdır. Suraxanada və Əmircan ətrafında neft çıxarıldığından kənd əhlindən çoxu əkinçiliyi tərk edərək, mədənlərdə fəhləlik edirdilər. Neft və təbii qazdan istifadə edərək, Əmircanda əhəng bişirən kar-xanalar açılmışdı. Burada bişirilən əhəng ulaq və arabalarla daşınaraq, ətraf kəndlərdə satılırdı.

Bundan başqa kəndin Şor adlanan yerində ağ duz istehsal olunurdu. Əhali yay aylarında göldən duzu toplayıb, bazarlarda satardılar. Əmircanın duzu Yaxın Şərq və qərb ölkələrində də şöhrət qazanmışdı. Bu kənddə kərpic də bişirilirdi. Kərpic üçün xammalın, gilin mənbəyi Zığ ilə Xilə dağı arasındakı düzənlik idi.

Əmircanda kustarçılıq ta qədimdən çox inkişaf etmişdi. Kənddə xüsusilə xalçaçılıq daha geniş yayılmışdı. Kənddə, demək olar ki, hər evdə hana qurulmuşdu. Burada butöv bir xalçaçı nəsli yaradılmışdı. Əmircan qadınlarının toxuduqları xalça və xalılar, xüsusilə Xilə puta və Xilə əfşan xalıları daha məşhurdu. Kənddə xalı toxuyan qadınlardan Nur Şərəf, Umnisa, Mehri və başqaları ətraf kəndlərdə də şöhrət qazanmışdılar.

**Bülbülə kəndi.** Abşeronun qədim yaşayış məntəqələrindəndir.

Bülbülədə orta əsrlərə dair bir sıra abidələr, o cümlədən 1624-cü ildə tikilmiş Şeyx Nəcməddin məscidi var.

Bülbülə kəndində bir sıra tarixi abidələr olmuşdur. Bunların arasında "İmamzadə" xüsusi yer tutur. Bülbülə "İmamzadə"sində beşinci İmam Mühəmməd Baqirin övladı Mühəmməd Sadiq, onun xanımı, həmçinin nökəri də dəfn olunmuşdur. Onların Bülbülə torpağında dəfn olunması bu torpağın müqəddəsliyini bir daha təsdiq etmiş, onların dəfn olunduğu yer bu günə qədər ziyarətgaha çevrilmişdir. Kərbalayı Ağabalabəy Bakıxanov Azərbaycanın böyük mütəfəkkir şairi və alimi Abbasqulu Ağa Bakıxanovun qardaşı oğludur. Kərbalayı Ağabalabəyin adı ilə bağlı olan Kərbalayı Ağabalabəy məscidi 1850-1860-cı illərdə tikilmişdir. Qəriblər məscidi Bülbülənin yuxarı hissəsində lahıclar məhəlləsində yerləşir. Məscid 1915-ci ildə Seyid Baxış Seyid Nurbaxış oğlunun rəhbərliyi ilə suraxanılı usta Məşədi Dadaş tərəfindən tikilmişdir. Salam təpəsi Bülbülə ilə Bakıxanov qəsəbəsi sərhədində yerləşən həmşəhərli qəbiristanlığı adı ilə tanınan ərazinin ən hündür sahəsində yerləşir. İrandan Bakıya işləməyə gələnlər dünyalarını dəyişdikləri zaman bu ərazidə dəfn olunurdular, buna görə də bu yer xalq arasında həmşəhərli qəbiristanlığı kimi tanınırdı.

Deyilənlərə görə Bülbülə kəndinin günçıxan tərəfindən olan kəndlərdən zəvvarlar Məkkə, Kərbala və Məşhəd şəhərlərinə ziyarətə gedərkən bu təpədə ayaq saxlayar, Bülbülədə olan "İmamzadə"yə salam verərdilər. Çovuş ziyarətnamə oxuyub qurtardıqdan sonra isə xudahafizləşərdilər. Ziyarətdən qayıdan zaman da onlar bu təpədə ayaq saxlayar, Bülbülə "İmamzadə"si ilə salamlaşardılar. Ziyarətə gedən zəvvarları yola salanlar onları bu təpədən yola salıb evlərinə dönərdilər. Beləliklə, xalq arasında bu təpənin adı Salam təpəsi adlanırdı. Bülbülədə 4 hamam var idi: 1. Əlican və Vəlican hamamı 2. Hacı İsgəndər hamamı 3. Razaq hamamı 4. Almas hamamı. Əlican və Vəlican hamamı

1902-ci ildə Məşədi Vəlican tərəfindən tikilmiş, hamamın dörd günbəzindən hal-hazırda ikisi qalmışdır.

Müasir Bülbülə –1936-cı ildən etibarən Bakı şəhəri Suraxanı rayonunda şəhər tipli qəsəbədir. Azərbaycanın bir çox görkəmli şəxsləri Bülbülə qəsəbəsinə tarixi baxımdan yüksək qiymət vermişlər. Azərbaycanın tarixində böyük xidmətləri olan mütəfəkkir alim Abbasqulu Ağa Bakıxanov – özünün "Gülüstani-İrəm" əsərində Bülbülə haqqında belə yazır: "Xalq arasında belə bir rəvayət məşhurdur ki, Əmircan, Bülbülə və Ramana kəndləri xan kəndidir". "Bir çox şəhər və kənd xarabaları, Həzrət Şəmunun Aran şəhərində və yüksək dərəcəli üç imamzadənin – Şamaxı, Gəncə və Bərdə şəhərlərində olan türbələri, Bülbülə kəndindəki "İmamzadə" göstərir ki, bu ölkə həmişə din böyüklərinin vətəni olmuşdur". Beşinci İmam Mühəmməd Baqir 677-735–ci illərdə yaşamışdır. Buradan məlum olur ki, Bülbülədə hələ o zamanlar yaşayış var imiş ki, İmamın övladları da bura pənah gətirmiş və burada məskunlaşmışlar. Söyləyirlər ki, qədim əsrlərdə Bülbülə şorunun ətrafında şirin sulu bulaqlar qaynayarmış. Yayda şorun suyu quruyandan sonra üzə çıxan duzdan ceyranlar yalayar, şirin sulardan içərmişlər. Qafqaz, Azərbaycan – dünyanın ən qədim xalqlarından biri olan oğuzların – ulu babalarımızın məskəni olmuşdur. Bülbülə yaşayış mərkəzi özü də qədim oğuz məskənidir. "Bülbülə" sözünün mənşəyi haqqında aşağıdakı rəvayətlər mövcuddur: 1. Bülbülə şorunun ətrafında şirin sulu bulaqlardan birini "pül-pül" adlandırmışlar. 2. Başqa bir rəvayətdə isə deyilir ki, eramızdan əvvəl təxminən 335-325 illər arasında Makedoniyalı İsgəndər Zülqərneyn öz qoşunu ilə Bülbülə torpaqlarından keçən zaman palçıq, bataqlıq olan yerlərdə əziyyət çəkmiş və bu yerlərə "buli-buli" demişlər. 3. Başqa bir rəvayət isə "Bülbülə" sözunun burada olan bülbüllərin

çox olması ilə əlaqələndirir. Bütün bu yazılardan Bülbülə kəndinin dəqiq yaşını müəyyən etmək olmasada, məlum olur ki, bu kənd qədim tarixə malik olmuş və müqəddəs yer kimi tanınmışdır. Bu fikir hal-hazırda kənddə yaşayan əhalinin müxtəlif yerlərdən gəlməsini də təsdiq edir. Kənd əhalisinin əsas məşğuliyyəti xalçaçılıq, misgərlik, daşyonan, dabbaqlıq, maldarlıq, dəmirçilik, əkinçilik, bağbanlıq, qalayçılıq və s. olmuşdur.

**Keşlə kəndi.** Kəndin əsl adı Qışladır. Zaman keçdikcə bu söz Keşlə şəklini almışdır. Bu kənd Bakı xanları ilə sıx bağlı olmuşdur. Xanların atları, qaramal və qoyun sürüləri bu qışlada saxlanırdı. Xan öz ilxısını yoxlamaq üçün ara-sıra Keşləyə gəlirmiş. O vaxtdan xalq içərisində belə bir zərb-məsəl yaranmışdır. Birini bir yerə tələsən və qaçan gördükdə deyərdilər: Haraya tələsirsən, Keşləyə xan gəlir, nədir?

Qədim və zəngin tarixi ilə seçilən Bakı kəndlərindən biri də **Fatmayıdı**r. Kənd qəbiristanlığındakı türbə və qəbirdaşı yazıları bu yaşayış məskəninin ən azı 600 illik tarixi olduğunu deməyə əsas verir. Fatmayı kəndi Məhəmmədi, Digah, Pirşağı və Görədil kəndləri ilə qonşudur.

Kəndin yaxınlığında “Aşağı şor” deyilən qurumuş duz gölü və adı əfsanəyə çevrilmiş “Qızıl nohur” gölü yerləşir. Əfsanəyə görə, al-qırmızı paltarlı gəlin bu göldə batdığı üçün bütün göl qırmızı rəngə boyanıb. Elə o vaxtdan gölün adı “Qızıl nohur” adlanır. Əvvəllər kənddə yaşıllıq hədsiz dərəcədə az olub. Əhali əsasən əkinçilik və maldarlıqla məşğul olar, dəmyə taxıl və bostan bitkiləri yetişdirərdilər. İsti yay aylarında isə dənizə yaxın yerdə salınmış üzüm bağları əhalinin dadına çatırdı. Küp və bardaqlar dolusu doşab, kisələrlə qurudulmuş əncir, üzüm qurusu,

zəncilfərəc (əncirdən hazırlanmış ədviyyatlı şirni) və başqa azuqələr hazırlanardı.

Fatmayılılar yayda topladıqları buğda və arpanı üyütmək üçün uzağa getməzdilər, kəndin öz dəyirmanı var idi. Buğda çuvalları ilə dolu arabalar yan-yana düzülərdi. Axşamüstü dəyirmanın qarşısı kənd qocalarının söz-söhbət yeri olardı. Yaşları 90-a çatmış qocalar tənbəki çubuqlarını sümürərək çırthaçırtla közərən tənbəkinin tüstüsünü havaya üfüləyər, keçmiş günləri yada salar, gələcəkdən danışıb söhbət edərdilər.

Kəndi gəzdikcə müxtəlif tarixi abidələrlə rastlaşıram. Fatmayıda qədim tikililərdən daha çox məscidlər diqqəti cəlb edir. Burada beş məscid var. “Hacı Heybət” məscidi (XV əsr), “Əlvətdin” məscidi (XVI əsr), “Poladlılar” məscidi (XVIII əsr), “Xanımcan” və “Pirəsərvan” piri (XV əsr), köhnə qəbiristanlıq (XV əsr) kəndin zəngin keçmişindən xəbər verir. Məscidlərin içində ən son inşa edilən (1897) xeyriyyəçi Hacı Hüseyn tərəfindən tikilən “İmam Hüseyn” məscididir. Hər məhəllənin öz məscidi var. Bütün məscidlərin də həyətində buz kimi sərin suyu olan quyular.

Fatmayıdakı “Pirəsərvan” piri bu ərazidə məşhur dini ocaqlardandır. Qocaların dediyinə görə, pirdə Allahdan dilədiyin hər bir arzun həyata keçir. Pirin adının maraqlı tarixçəsi var. Bir dəfə bu ərazidən ərəb köklü fatimilərin karvanı keçirmiş. Karvanın qocaman sarvanı şeyx Übeydullahın halı pisləşir. Canını tapşıran sarvanı elə orada da dəfn edirlər. O vaxtdan bu ərazi “Pirəsərvan” adlanır. Kənd sakini Gülfirə nənənin (kənddə hamı ona “Hacı xanım” deyə müraciət edir) dediklərinə görə, il quraqlıq keçəndə qadınlar həmin yerə toplaşıb iri qazanlarda aş bişirər, sonra aşdan kasıblara paylayıb Allahdan yağış diləyərlərdilər.

Bu ərazi həm də Kiçik Qafqaz dağlarının bitdiyi yerdir. Ən maraqlısı isə isti havalarda bu ərazinin daima sərin olmasıdır. Hündür təpədə Bakı kəndlərinin heç birində bu qədər hiss olunmayan sərin mehi hiss etmək mümkündür. Kəndin adında da meh sözü var: ərəb-fars mənşəli "Fatmehi" sözü zəif səhər küləyi deməkdir. Bəzi yerlərdə kəndin adı Fatma adı ilə və ya hər hansı bir təriqətlə bağlı olduğu qeyd edilsə də, bunun konkret sübutu yoxdur.

Fatmayıya gəlib türk şəhidlərinin məzarlığını ziyarət etməmək günah olar. Hacı xanımın dediklərinə görə, 1918-ci ildə erməni dəstələri kəndə dəniz tərəfdən hücum edərkən türk əsgərləri köməyə gəlib. Kəndi erməni daşnaklarından qəhrəmancasına xilas edən türk əsgərləri burada şəhid olublar. Qəbiristanlığa öz doğmalarını ziyarətə gələn kənd camaatı şəhidlərə hörmət əlaməti olaraq birinci onların məzarlarını ziyarət edib ruhlarına dua oxuyur.



**Ramana kəndi.** Əsl adı Rəhmanidir. Burada rəhmanilər tayfası yaşadığından kənd də Rəhmani adlandırılmış və çox sonralar bu Ramana şəklində işlədilmişdir. Əslinə baxsan Ramana sözü rus deyilişi əsasında yaranıb.

Ramanada da Balaxanıda olduğu kimi kənd yollarının sağ-solu neft buruqlarıdır. Kəndin tarixi ilə bağlı yerli sakin Seyid Zöhrab danışır: “Kəndin əsası eramızın təqribən 84-cü və 96-cı illəri arasında Roma imperiyasının XII İldırımsaçan Legionundan Maksimus Liviusun rəhbərliyi altında bir qrup əsgər tərəfindən qoyulub. Adı isə ”Rahmana", yəni “Allah” sözündən götürülüb. Sovet hakimiyyəti illərində və bundan əvvəl bu kəndin tarixi neftlə bilavasitə bağlı olub. Ramanaya aparan yolun hər iki tərəfində neft buruqları olan sahələr Azərbaycanda neft bumu dövrünün şahidləridir. Xarici və yerli burjuaziyanın izlərini kənd bu gün də yaşadır".

**Nardaran.** Dəniz sahilində düşmüş kəndlərdən biridir. 1813-cü il məlumatına əsasən Bilgəhə nisbətən Nardaranda əhali çox olub. Həmin illərdə Bilgəhdə cəmi 93 nəfər adam yaşadığı halda, Nardaranda əhalinin sayı 139 nəfər idi. Bilgəh xan hüququnda olan Qayib bəy tərəfindən, Nardaran isə Kərim bəy tərəfindən idarə olunurdu. Bu iki qonşu kənd öz coğrafi şəraiti və əhalisinin məşğuliyyəti etibarilə də bir-birinə yaxın idilər. Hər iki kənd başlıca olaraq, zəfəran əkirdi. Bu kəndlərdə xəzri külləkləri hündürlüyü üç-dörd metrə çatan narın qum təpələrini tez-tez bir yerdən başqa yerə sovururdu. Yay aylarında yerlilər bağlara köçdükləri zaman evləri demək olar ki, qazıb, qumun altından çıxarırdılar. Xəzri külləkləri Abşeronun bu kəndlərində xüsusilə böyük fəğan qoparırdı.



Bu kəndlərin balıqçılıqla məşğul olan əhalisi dənizdə həmişə ölümlə əlbəyaxada idilər. Lakin bu kəndlərin fərqi orasında idi ki, Nardaranda çoxlu nar ağacları əkildiyi halda Bilgəhdə barama bəsləməklə məşğul olan əhali tut və çəki ağacları əkməyə məcbur idilər. Kəndlərin adları da əhalisinin məşğələsinə müvafiq olaraq adlanırdı. Nardaran iki sözdən: "nar" və "daran" sözlərindən düzəlmişdi. "Daran" farsca olan mənasında işləndiyindən kəndin adı nar olan yer kimi tanınmışdı. Bəziləri "nar" sözünü od mənasında izah edirlər. Əlbəttə, bu səhvdir. Bakı kəndləri əksər hallarda orada istehsal olunan məhsullar, ya da həmin yerə məxsus xarakterik hadisə ilə adlandırılmışlar. Badamdar buna gözəl sübutdur. İndiki **Badamdar** (səhvən onu Patamdar adlandırırlar) Badam və daran sözlərindən düzəldilmişdir. Yəni badam olan yer. 1301-ci ildə Nardaranın şimal hissəsində dairəvi bir qala tikilmişdi. Qala dörd bucaqlı və hər küncündə bürcü olan hasar içərisinə alınmışdı. Üç yarusdan (mərtəbədən) ibarət təxminən 12 metr hündürlüyündə olan bu qala usta Mahmud ibn Səad tərəfindən tikilmişdir. Biz usta Mahmud ibn Səadın adına Şıx kəndinin məscidi və İçərişəhərdəki "Molla Əhməd məscidi" divarlarında da rast gəlirik. Bu tikililər eyni ustad tərəfindən inşa edilmişdi.

Bundan başqa Nardaranda təxminən 13-14-cü əsrlərə aid "Xan bağı" adlanan bir tikili də vardır. Binanın ətrafında geniş üzüm bağları da salınmışdır. Görünür ki, yay aylarında bura Bakı hakimlərinin istirahət yeri olmuşdur. Bağın cənub-qərbində 10 metr dərinliyində bir quyu vardır ki, onun dibində şərqə və qərbə tərəf ayrılan iki yol görünür. Yerlilər arasında belə bir rəvayət yaranmışdır ki, guya quyunun dibindəki yollar Nardaran qalasına və məşhur Nardaran pirinə gedib çıxır.

**Bilgəh.** Bu kənd Xəzərin səfalı sahilində yerləşir. Burada vaxtilə çoxlu tut ağacları əkildiyi və əhali baramaçılıqla məşğul olduğu üçün etnoqraf N.Zeytants iddia edirdi ki, Bilgəh sözü "pilə" (barama) və "gah" sözlərindən əmələ gəlib. O vaxtlar Bilgəhdə baramaçılıq doğrudan da inkişaf etmişdi. Hasil edilən ipək Bakı və Şamaxı şəhərləri vasitəsilə bazarlara çıxarılır, ya da bilavasitə olaraq, gəmiləri Bilgəh sahillərinə yan alan tacirlərə satılırdı. Bilgəhdə Həftəxor piri olmuşdur. Guya bu pirdə yaşayan qoca həftədə ancaq bir dəfə yeyirmiş.



**Novxana kəndi**. Bu kənd nisbətən sonralar salındığı üçün Novxana (yəni təzə kənd) adlanırdı. Nov tatca yeni deməkdir.

Abşeron bağlarının yaranma tarixi 5 min il əvvəllərə gedib çıxır. Ərazidə yerləşən bağlar arasında ən qədimi Novxanı bağlarıdır. Bu da Novxanı tarixinin qədimliyindən xəbər verir. Halbuki, bəzi tarixi mənbələrdə onun orta əsrlərdə yarandığı göstərilir. Sadəcə girişdə qeyd etdiyimiz kimi, kənd müxtəlif tarixi mərhələlərdə başqa yerlərə köçdüyündən onun tarixinin uzaqlığına gedib çıxmaq mümkünsüzləşib. Novxanı digər kəndlərdən zahiri və mental baxımdan fərqlənir. Kəndin qədim hissəsində qalmış hər bir ev və həyətlərdə su quyusu, tövlələr, xırman, bostan məhsulları saxlamaq üçün anbarlar qarşımıza çıxır. Bu arada Novxanı ənciri və üzümünün başqa kəndlərdən fərqləndiyini də qeyd etmək yerinə düşər. Binaların və həyətlərin quruluşu kəndlilərin əkinçilik və maldarlıqla məşğul olduqlarına işarə edir.




Novxanı adı gələndə Məhəmməd Əmin Rəsulzadə yada düşür. Şərqin ilk demokratik respublikasının banisi 1884-cü il yanvarın 31-i anadan olub. Eyni zamanda, Novxanı Mirzəbala Məmmədzadə, Seyid Hüseyn, Ümgülsüm və Oqtay Sadıqzadələr kimi tanınmışların doğma kəndidir. Siyahını Əzim Əzimzadə, Lütfi Zadə, Mehdi Hüseynzadə, Süleyman Rüstəm kimi şəxsiyyətlərlə uzatmaq olar.

"Məşədi İbad" hamamı, "Hacı Qulu" piri, "Şah Hüseyn" məscidi...

Novxanıda iki qədim hamam və məscid var. Hamamlardan birinin yaşı 300, digərinin yaşı isə təqribən 500-ə bərabərdir. Kəndin mərkəzində XVII əsrə aid Şah Sultan Hüseyn məscidi fəaliyyət göstərir. Duz gölünün yanında yerləşən məscidin isə

300-400 il əvvəl tikildiyi güman olunur. Kəndin axundu Mirsoltan Məhəmmədli XX əsrin əvvəllərinədək Novxanıdakı məscidlərin sayı dörd olduğunu deyir: “Sovet hökumətinin ilk illərində onlardan ikisi uçurdulub. Ötən aylara qədər bir neçə dəfə tədqiqatçılar bura gəlib, araşdırmalar aparırdılar. Hətta Novxanıya istirahətə gələn turistlər çox vaxt yollarını buradan salırlar. Duz gölünün ecazkar mənzərəsi altında görünən qədim məscidin qalıqları onların marağına səbəb olur. Təəssüf ki, bu abidələr ölkəmizin qorunan tarix-memarlıq abidələrinin siyahısına hələ də salınmayıb”. Duz gölünə baxan açıq bir ərazidə yerləşən kəndin qədim hamamı isə ötən əsrin axırlarında istifadəyə qapadılıb. El arasında “Məşədi İbad” kimi tanınan qədim hamam bu gün baxımsız qalıb. Kənd sakini Əkrəm şam işığıyla qızdırılan bu hamamda vaxtı ilə duz vannası da olduğunu bildirir: “Hamama iki yerdən su xətti çəkilibmiş. Duzlu suyun müalicəvi əhəmiyyətinin böyük olduğunu bilən kənd ağsaqqalları öz vəsaitləri hesabına Duz gölündən hamama su xətti çəkdiriblər. 200-ə yaxın yaşı olan günbəzli hamam isə qədim məscidin yaxınlığında yerləşir. Qapıları bağlı olan hamam 92-ci ilə kimi fəaliyyət göstərib. Hazırda hamamın qorunması biz kəndlilərin öhdəsinə düşüb”. Yerli sakinlərlə söhbət əsnasında öyrənirik Novxanıda məşhur övliya və seyidlər də yaşayıb. Onlardan biri də kənd qəbiristanlığında yerləşən “Hacı Qulu” piridir. Hər gün onlarla insanın baş çəkdiyi bu pirdə övliya Hacı Qulu və qızı dəfn olunub.

**Kürdəxana.** Bakıda çox az miqdarda kürd yaşayırdı. Onlar tamamilə türkləşmiş və öz dillərini unutmuşdular. Onlar indiki Kürdəxananın sahəsində yaşamış və kənd də Kürdəxana adlandırılmışdır.

**Pirşağı** kəndinin əsl adı Pir Şikakdır. Kənd burada olan Şikak adlı və sonralar Pirə çevrilmiş bir qəbrin adı ilə adlandırılmışdır.

**Saray** 1771-ci ildə Bakıda olmuş Qmelin Quba xanının nökərləri və süvarilərinin yaşadığı bu kəndi Saray adlandırır.

Saray qəsəbəsinin tarixi IX əsrlərə aiddir. Belə ki, Saray sözü "Karvan Sara" sözündən yaranmışdır. Hələ bizim eradan əvvəl Qədim İpək Yolunun keçdiyi yollardan biri qəsəbəsinin cənub tərəfində köhnə Saray kəndi adlanan ərazidən keçirmiş. Burada Karvan dayanıb istirahət etdikdən sonra yoluna davam edərmiş. Sonrakı iqtisadi inkişafla əlaqədar karvanın başqa nəqliyyat növü ilə əvəz edilməsi ilə karvan gediş-gəlişi kəsilmişdir. Bunun nəticəsində karvan sözü ixtisara düşmüş, Sara sözünə isə "y" səsi artırılaraq Saray adını almışdır.

Digər fərziyyəyə görə Saray kəndinin adı hərfi mənada şah, xan sarayı, öz əzəməti ilə nəzəri cəlb edən bina və yaxud ev kimi tərcümə olunur. "Sar" farsca "yüksəklik" kimi tərcümə olunur.

Bu kənd ilə bağlı daha bir fərziyyə XIII əsrdə Cənubi Qafqaz ərazisində monqollarla birgə yaşamış saray tayfası ilə bağlıdır. Ola bilər ki, o zamanlar həmin tayfanın nümayəndələri indiki Saray kəndinin ərazisində məskunlaşmışdılar.

Sənədlərdə adı ilk dəfə 1774-cü ildən çəkilir.

**Digah** hündür yer, təpə deməkdir. Əhalisi əkinçiliklə məşğul olurdu. Digah kəndi nəinki özünü, habelə yaxın kəndləri də taxılla təmin edirdi.

Digah Abşeron rayonunun Məhəmmədi, Balaxanı və Fatmayı kəndləri ilə qonşudur. Digər kəndlərdə oldugu kimi Digah kəndinin də tarixi tam öyrənilməmişdir. Lakin bu ərazidə olan abidələr kəndin qədim olmasının göstəricisidir. Digahda tunc dövrünə aid göl də mövcuddur. Kənd əsasən Tərəkəmə türk tayfasından mövcuddur. Daha sonra isə kəndə müxtəlif

ərazilərdən, o cümlədən Cənubi Azərbaycandan, İrandan da insanlar gəlmişlər. Hal-hazırda da Digahda Şahsevərlər məhəlləsi mövcuddur.

Aparılan araşdırmalar nəticəsində kənd ərazisində qədim dövrlərə aid heyvan sümükləri aşkar olunmuşdur.

Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi Digah kəndi də 1918-ci ildə erməni işğalçılarının hücumuna məruz qalmışdır. Türklərin gəlişi ilə ərazi ermənilərdən təmizlənmişdir. Digahda doyüşən türk şəhidlərimizin qəbirləri hələdə qalmaqdadır.

Kəndin adının mənası hal-hazırda Balaxanılılar və Suraxanılıların danışdığı, vaxtı ikən də iki-üç kəndi çıxmaqla Digah da daxil olmaqla bütün Bakı kəndlərində danışılan Tat dilindədir. Və mənası "Dügah" yəni, "Dü - iki, ikinci", "Gah – yer" deməkdir.Yəni, "İkinci yer".

**Güzdək kəndi:** Güzdək payız binələrinin olduğu yerə deyilir. Sonralar bu binələrin ətrafında yaşayış məskəni salınmışdır.

**Binəqədi**: (Bu kəndə Binəqazi də deyirlər.) Sonralar bu torpaqlarda da neft yataqları tapılmışdır. Binəqazi sözundən məlum olur ki, bura bir nəfər qazinin binəsi olub.

**Biləcəri** kəndində də əkinçilik və daha çox maldarlıqla məşğul olmuşlar. Biləcəri toponiminə gəlincə demək lazımdır ki, bəzi tədqiqatçılar bunun türk sözü olduğunu iddia edirlər. Tarixçi Əli Hüseynzadə isə "Biləcəri toponiminin etimologiyasına aid" məqaləsində isbat etməyə çalışırdı ki, bu söz xəzərlərin "Biləzzəri" sözü ilə, yaxud da qədim bolqar etnonimi ilə əlaqədardır. Bakı kəndi adlarının bir qayda olaraq, fars tərkibi əsasında düzəldiyini nəzərə alaraq, görərik ki, Biləcəri əslində iki fars sözündən düzəldilmişdir: "Bala" - hündür, yüksək, "Cər" - uçurum, çuxur sözlərindən, yəni hündür, yaxud dərin çuxur. Məlum olduğu üzrə Biləcəri dərin bir çuxurdadır. Bakıdan

çıxarkən, Biləcəriyə enən eniş buna sübut ola bilər. Biləcəri vaxtilə bakılıların mal-qara saxladıqları ağıl olub.

**Dərnəgül** kəndi əvvəllər ağıl olub. Sözün əsli də Dərnəgül deyil, Dərinağıldır. Bu yer sonralar yaşayış məskəninə - kəndə çevrilmişdir.

**Qobu kəndi:** Qobu sözü yarğan deməkdir. Kənd də yarğanda salındığı üçün Qobu adlanır.

Qobu Abşeronun qədim kəndlərindən olsa da tarixi az öyrənilib. Tarixçi Sara Aşurbəyli tədqiqatlarında yazıb ki, Qobu kəndi təxminən 700 il əvvəl yaranıb. Bu yaşayış məskəninin adı "çökəklik, müvəqqəti su axarı olan dərə, düzən" mənalarını verir.

XVIII əsrin 40-cı illərində Abşeron yarımadasında yaranmış Bakı xanlığının tərkibinə 39 kənd daxil idi. Bu kəndlərdən biri də Qobu kəndi idi. 1747-1806-cı illərdə Bakı xanlığının Qobu kəndi, 1806-1920-ci illərdə isə Bakı quberniyasının Bakı qəzasının Qobu kəndi olmuşdur.

1870-ci ildə Tiflis şəhərində Qafqaz Canişinliyinin Baş İdarəsi yanında Qafqaz Statistika Komitəsinin nəşr etdirdiyi "Rusiya İmperiyasının Qafqaz regionu üzrə məşkunlaşmış yerlərinin siyahısı" adlı statistik məlumatın Bakı quberniyasına aid olan 65-ci buraxılışında Bakı qəzasının yaşayış yerlərinin siyahısında 42-ci yerdə Qobu kəndi qeyd edilmişdir. Kitabın tərtibatçısı Qafqaz Statistika Komitəsinin baş redaktoru rus statistiki Nikolay Karloviç Zeydliç olmuşdur. Bu statistik məlumat 1859-cu ildən 1864-cü ilədək olan məlumatlar əsasında nəşr edilmişdir. Burada göstərilmişdir ki, Qobu kəndi Şubanı dağlarının ətəyində yerləşir və quberniya şəhəri olan Bakı şəhərindən 15 versta (təxminən 16 kilometr) məsafədə yerləşir və kənddə 183 ev vardır. Bu kənddə 499 nəfər kişi və 475 nəfər qadın yaşayır. Bu isə kəndin bütün əhalisinin 974 nəfər olması deməkdir. Burada Qobu kəndində 1

məscidin olması və dini təriqətin şiə təriqəti olması göstərilmişdir və 41 qəza kəndi içərisində evlərinin say çoxluğuna görə 12-ci yerdə olması qeyd edilmişdir.

1892-ci ildə Sankt-Peterburq şəhərində çapdan çıxmış Rusiya İmperiyası Daxili İşlər Nazirliyinin Mərkəzi Statistika Komitəsinin «ВОЛОСТИ И ГМИНЫ 1890 ГОДА» adlı statistik nəşrinin Bakı quberniyasına həsr edilmiş 61-ci cildində Bakı quberniyasının Bakı qəzasına aid olan kəndlərin siyahısında 41 kənd adı qeyd edilmişdir. Həmin siyahıda 22-ci yerdə Qobu kəndi göstərilmişdir.

**Şağan kəndi:** Əsli Şağan bağdır. Belə bir adda Bibiheybət yaxınlığında bir yer vardır. Şağan sözünün əsl mənası isə indiyədək tədqiq edilməmişdir. Bu kənddə yaşayanlar Abşeron əhlindən tamamilə fərqli olaraq təmiz türk dilində danışırlar. Dillərində tatların təsiri qəti hiss olunmur. Bağçılıq və bostançılıqla məşğul olublar.

**Zabrat kəndi:** Bakının vaxtilə əkinçiliklə məşğul olan kəndlərindən biri də Zabrat kəndidir. Bəziləri Zabratın rus sözü olduğunu iddia edirlər. Əslində isə belə deyil. Bu Xəzərin qərb sahillərinə gəlmiş və bir müddət burada köç salmış Sabir tayfasının adı ilə bağlı sözdür. Zabrat - Sabir sözünün axırına ərəbcə “at” cəm şəkilçisini əlavə etməklə düzəldilmişdir. Sonralar S hərfi Z hərfi ilə əvəz edilmiş və sabir sözundəki İ hərfi düşərək Zabrat kimi tələffüz olunmağa başlamışdır.

Xəzər sahillərinə gəlmiş köçəri türk tayfaları bir qayda olaraq düşdükləri yerləri öz adları ilə adlandırırdılar. Xəzər dənizinin adı da hun tayfalarından olan xəzərlərin adı ilə bağlıdır. Bu tayfaların bir qolunu da zığlar təşkil edirdi. Onlar **Zığ kəndi** torpaqlarında yaşamış və öz adlarını da bu yerə vermişlər. Yuxarıda adını çəkdiyimiz sabirlər də hun tayfalarından çıxma idilər. Bir müddət

sonra, yəni XI əsrin əvvəllərindən yeni səlcuq qəbilələri Azərbaycana köçməyə başladılar. Köçüb gəlmiş axırıncı qəbilələrdən biri də əhmədlilər idi. Onlar başlıca olaraq, indiki **Əhmədli qəsəbəsinin** ərazisində yerləşmişdilər. Bu yerin başqa bir adı da Küləy Mahmud və ya Qulam Mahmuddur (Mahmudun nökərləri deməkdir). O zaman Azərbaycana səpələnmiş əhmədlilərin izləri indiyədək qalmışdır. Onların adları ilə adlandırılmış Əhmədli kəndlərinə indi də rast gəlmək olar, hazırda Göyçayda, Cəbrayılda, Qubada, Lənkəran və başqa rayonlarda Əhmədli kəndləri mövcuddur.

**Xırdalan kəndi:** Bakı ilə Sumqayıt arasında yerləşir. Bakı kəndlərinə nisbətən daha sonralar təpələrin ətəyində salınmışdır. Qədim zamanlardan burada karvansaralar, hamam və ovdan qalıb. Əhalisi əksəriyyətlə əkinçiliklə məşğul olmuşdur. Bizim günlərdə Xırdalanın siması tamamilə dəyişmişdir. Bir rəvayətə görə Xırdalan Xırd və Alan sözlərindən əmələ gəlmişdir.

**Pirəkəşkül kəndi:** Kəndin Pirəkəşkül adlanması təsadüfi deyildir. Çünki bu kənddə yaşayanlar əksəriyyətlə köçərilərdir. Buna əsasən bəzi tarixçilər onu kənd hesab etmirlər. Lakin köçərilər ilin çox vaxtını burada keçirdiklərindən 1870-ci il siyahısına kənd kimi daxil edilmişdir. Bir ehtimala görə Pirəkəşkülün əsl adı Parakəşkül olmuşdur.

Bu kəndlərdən başqa Bakı ətrafında bir para kəndlər də olmuşdur ki, onların indi ancaq adları qalıb. Onlardan biri Kürkandır. Zirə kəndi yaxınlığında olub, dənizə tərəf uzanan qayalıqların üstündə qalmış araba çarxlarının izləri bunu deməyə haqq verir. Bu çarx izləri birbaşa dənizin içərisinə tərəf, yəqin ki, Gürkana gedirmiş. Sonralar dənizin səviyyəsi qalxdığından kənd suyun altında qalmışdır. Hazırda adı qalmış kəndlərdən biri də Şubanıdır. Vaxtı ilə Şubanı dağlarının ətəyində Suraxanadakı

kimi atəşgah varmış. Adamlar da bu atəşgahın ətrafında məskən salmışdılar. Sonralar atəşgah dağıldığından adamlar da pərən-pərən düşmüş və Şubanı yaşayış məskəni kimi öz əhəmiyyətini itirmişdir.

# Ədəbiyyat

## Kitab


**2001**

**1.Türkan** /T.Səlimov-Şağani; Nəşriyyat red.: V.Bəhmənli.-Bakı: XXI Yeni Nəşrlər Evi, 2001.-128 səh.

**2.Binə** /T. Səlimov-Şağani.-Bakı: XXI YNE, 2001.-96 s.: fotoşək.

**2002**

**3.Qala:** [Bakı kəndləri seriyası] /Təvəkkül Səlimov-Şağani.-Bakı: XXI-Yeni Nəşrlər Evi, 2002.-80 səh.

**4.Şüvəlan** /T.Səlimov-Şağani; red.: V.Bəhmənli.-Bakı: XXI-Yeni Nəşrlər Evi, 2002.-104 s.

**2003**

**5.Maştağa**: [Ensiklopedik məlumat kitabı] /Vəli Həbiboğlu; Naşir: H. K. Novruz; red. M. Abbasov, A. Qədirov; elmi red.: T. Bünyadov, F. Qasımzadə; elmi məs.: H. A. Ələsgərov, R. Babayev və b.-Bakı: Azərbaycan Milli Ensiklopediyası, Darul-huda, 2003.-1236 s.: portr., fotoşək.

**2007**

**6.Maştağa ədəbi mühiti və Mir Cəlal** /X.Sona; Məsləhətçi. V. Məmmədəliyev; N.Şəfaioğlu; AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.-Bakı: Nurlan, 2007.-79 s.: 21 sm.

**7.Zabrat və zabratlılar** /Asif Hüseynov; red. Ə.Muxtarova; rəyçi. N. Xudiyev və b.-Bakı: Nurlan, 2007.-527 s.: fotoşək., 21 sm.

**2006**

**8.Bakı və bakılılar** /Q. İlkin ; red. A. Musayev ; burax. məs. S. Osmanova.-Bakı: Nurlar, 2006.-384 s.: portr., fotoşək.

**2008**

**9.Bakı və Bakılılar** /Ç.Şeydayev; red. A.İsabəyli.-Bakı: Şirvannəşr.-2008.-284 s.

**10.Kürdəxanı** /Axund Əlizadə, Hacı Casim Muxtarov; red. Hacı Arif Buzovnalı.-Bakı: Qarabağ, 2008.-432.

**2010**

**11.Novxanı:** sərvətimiz şəxsiyyətimizdir/Vaqif Ağayev; red. Ə.Əlimədətoğlu və b.; rəs. E.Cabbarov,Z.Cabbarov.- Bakı: Zərdabi MMC, 2010.- 480 s.

**2012**

**12.Balaxanı**: dünən və bu gün [Mətn] /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; Vətəndaş Təşəbbüsləri Mərkəzi; tərt. ed. Ç. Gülalıyev, A. Hacıyeva, G. Çingizqızı.-Bakı: Adiloğlu, 2012.-128 s.: fotoşək.

**2013**

**13.Bakı kəndlərinə səyahətim** /T.K.Cəbiyeva; red. İ. Əliyev (ön söz).- Bakı: [Şəms], 2013.-477, [1] s.: cədv., portr., fotoşək., ill.

**14.Mərdəkan** /Ə. H. Mərdəkanlı.-Bakı: Mütərcim, 2013.-286, [1] s.: cədv.

**2014**

**15.Bakı: 2003-2013: Hədəflər, inkişafh, nəticələr** [İzomaterial]: [fotoalbom] /Azərb. Resp. İqtisadi İnkişaf Nazirliyi.-Bakı: [s. n.], 2013.- 247 [1] s.: rəngli fotoşək.

## 2015

**16.Qədim Bakıya Səyyahət** /Sevinc Nuruqızı; tərc. ed. T.Babanlı; red. M.Əvəzqızı.-Bakı: Təhsil, 2015.-168 s.

## Məqalələr

### 2006

**1.Binəqədi qədim torpaq, yeni torpaq** /B.Əsədov //Azərbaycan.-2006. - 17 dekabr. - S.3.

**2.Saray-Abidələri zəngin tariximizdən soraq verən qədim kənd** /Murvari Rəhimzadə//Respublika.-2006.- 1 sentyabr.-S.2.

### 2007

**3.Binəqədi kəndi abadlaşır** /Y.Kürdoğlu //İki sahil.-2007.- 15 dekabr.

### 2008

**4.Bakı kəndləri:** Adlarda yaşayan tarix /Flora Xəlilzadə //Azərbaycan.- 2008.- 21 sentyabr.- S.12.

**5.Bibiheybət ziyarətgahı:** tarixi və bu günü [Mətn] /Hidayət //Dövlət və din.-2008.- №3(7). - S.205-210.

**6.Corat Xəzərin sahilində canlı etnoqrafiya muzeyidir** /Q.Əhmədov//Azərbaycan.-2008.- 17 may.- S.6.

**7.Hökməli:** köhnə ünvan, təzə tanışlıq /S.Hüseynoğlu //Xalq qəzeti.-2008.- 23 dekabr.- S.5.

**8.Xilə, yoxsa Əmir Hacı?:** Əmircan kəndinin adı hələ də mübahisəlidir /T.Cəbiyeva//Mədəniyyət.-2008.-15 noyabr .- S.9.

**9.Qədim Keşlə abadlaşır, müasirləşir** /M.Yaqubzadə //Xalq qəzeti.-2008.- 12 mart. - S.7.

**10.Qədim və müasir Mərdəkan** /A.Əliyev //Azərbaycan.- 2008.- 13 avqust.- S. 6.

### 2009

**11.Corat qəsəbəsi: dünən və bu gün** /Ə.Nəcəfxanlı//Xalq qəzeti.-2009.- 14 oktyabr.- S. 7.

**12.Hökməli: yeniləşir, gözəlləşir**/S.Hüseynoğlu //Xalq qəzeti .-2009.- 20 dekabr.- S. 6.

**13.Söz və musiqi beşiyi- Nardaran** /Ə.Mahir; red. X. Vaqifqızı.-Bakı: Nurlan, 2009.-533, [3] s.: portr.,

**2010**

**14.Bakının Xocahəsən kəndi** /Təranə Cəbiyeva//Azərbaycan .-2010.- 28 noyabr.- S.6.

**15.Balaxanı:** Tariximizin yaddaşı: Bakı kəndləri /Yeganə Cansail //Mədəniyyət.-2010.- 4 avqust.- S.8.

**16.Bilgəh:** Tariximizin yaddaşı: Bakı kəndləri /Yeganə Cansail //Mədəniyyət.-2010.- 13 avqust.- S.12.

**17.Fatmayı:** Tariximizin yaddaşı: Bakı kəndləri /Y.Cansail //Mədəniyyət.- 2010.- 28 iyul.- S. 8.

**18.Hövsan:** Tariximizin yaddaşı: Bakı kəndləri /Y.Cansail //Mədəniyyət.-2010.- 3 sentyabr.- S. 8.

**19.Qala:** Tariximizin yaddaşı: Bakı kəndləri [Mətn] /Y. Cansail//Mədəniyyət.-2010.- 7 iyul. - S. 8.

**20.Maştağa:** Tariximizin yaddaşı: Bakı kəndləri /Y.Cansail //Mədəniyyət.-2010.- 20 avqust.- S.8.

**21.Mərdəkan haqqında nə bilirik?** /T.Cəbiyeva//Azərbaycan .-2010. - 30 yanvar.- S. 7.

**22.Nardaran:** Tariximizin yaddaşı: Bakı kəndləri /Y.Cansail //Mədəniyyət. -2010.- 27 avqust.- S.8.

**23.Sabunçu: inkişafın yeni mərhələsi** /M. Mükərrəmoğlu //Xalq qəzeti.-2010.- 24 fevral.- S. 6.

**24.Tariximizin yaddaşı:** Bakı kəndləri-Ramana /Y.Cansail //Mədəniyyət.-2010.- 21 iyul.- S. 15.

**2011**

**25.Abşeronun qədim tarix salnaməsi - Ramana: XIV əsrdən günümüzə soraq gətirən məşhur qala** //Azadlıq.-2011.- 19 fevral.- S. 13.

**26.Bakı şəhərinin ətraf kənd və qəsəbələrinin inkişafı daim diqqət mərkəzində saxlanılır** /Musa Hacıyev //Xalq qəzeti.- 2011.- 11 mart.- S.4.

**27.Balaxanı Odlar məkanı** /İ.Cavadova //Həftə içi.-2011.- 28 sentyabr.- S. 1; 8.

**28.Corat daha abad və gözəl olacaq** /Ə.Nəcəfxanlı//Xalq qəzeti.-2011.- 17 aprel.- S. 6.

**29.Əmircan:** Bakı kəndləri /Yeganə Cansail //Mədəniyyət.- 2011.- 13 iyul.- S.10.

**30.Pirşağı:** Bakı kəndləri /Yeganə Cansail //Mədəniyyət.- 2011.-6 iyul.- S.12.

**31.Prezident İlham Əliyev:** Bakı qəsəbələrində yaşayan insanlar üçün çox yaxşı şərait yaradılacaqdır /Vaqif Bayramov //Xalq qəzeti.- 2011.- 3 aprel.- S. 3.

**32.Prezident İlham Əliyev:** Bakı şəhərinin qəsəbələrinin inkişaf proqramının qəbul olunmasından sonra qəsəbələrə yeni həyat gələcək: Paytaxt qəsəbələri yeni inkişaf mərhələsinə qədəm qoyur /Mirbağır Yaqubzadə //Xalq qəzeti.- 2011.- 11 mart.- S. 4.

**33.Ramana**: [Annotasiya Ramananın tarixi abidələri və tikililəri haqqında] /İradə Cavadova //Həftə içi.-2011.-15-17 oktyabr.- S. 8.

**34.Tarix-etnoqrafiya qoruğu:** Tam bir abidə kompleksini xatırladan Qala kəndi //Azadlıq.-2011.- 6 sentyabr.- S. 14.

**35.Tarixə silinməz iz salan Qobu kəndi**: Türk komandanı Nuru Paşanın yolu buradan keçib //Azadlıq.-2011.- 20 iyun.- S. 14.

**36.Tarixin qalası - Qala kəndi:** Əsrlərlə bəhsə girən Qala //Azadlıq.-2011.- 6-7 mart.- S. 14.

**37.Yeni proqram və layihələr Bakıətrafı qəsəbələrin müasirləşməsinə səbəb olacaq** /Vüqar Tofiqli //Xalq qəzeti.- 2011.- 11 mart.- S.4.

**38.“2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı” nın uğurlu icrası təmin ediləcəkdir** //Azərbaycan.-2011.-19 may .-S. 2.

**2012**

**39.“Buzovna kəndinin əhvalatları”na ictimai baxış olub** /Hüsniyyə//525-ci qəzet.-2012.- 14 fevral.- S. 7.

**40.Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı uğurla həyata keçirilir** /Qasım Əfəndiyev //Xalq qəzeti.-2012.- 23 iyun.- S.6.

**41.Bakının ən qədim kəndlərindən- Balaxanı** /M. Qurbanov //Zaman.-2012.- 21-22 fevral.- S. 7.

**42.Binəqədi: ölkənin yeni inkişaf axınına doğru** /T.Həmid //Respublika.-2012.- 15 avqust.- S. 5.

**43.Gözəldən də gözəl "Bilgəh"** /E.Sabit//Azad Azərbaycan.- 2012. - 4 mart. - S.7.

**44.Keşlə qəsəbəsi:** Genişmiqyaslı tədbirlər həyata keçirilir /Qara Qarakişiyev //Respublika.- 2012.- 17 mart.- S.6.

**45.Qədim Bülbülənin yeni günləri** /R.Tahir //Xalq qəzeti.- 2012.- 7 mart.- S. 6.

**46.Prezident İlham Əliyev:** Proqramın icrası nəticəsində Bakıda və ətraf qəsəbələrdə bütün infrastruktur, sosial və iqtisadi problemlər həllini tapacaqdır /Mirbağır Yaqubzadə //Xalq qəzeti.- 2012.- 22 iyun.- S. 1.

**47.Tarixin canlı şahidi-Bakının Əmircan kəndi** /A.Səmədzadə//İqtisadiyyat.-2012.- 23-29 noyabr.- S.8.

## 2013

**48.Qədimliyin naxışları-Bakı kəndləri** /Flora Xəlilzadə //Azərbaycan.-2013.- 13 iyun.- S.11.

## 2014

**49.Bakı kəndlərinə səyahətim** /T.Vahid //Mədəniyyət.-2014.- 8 aprel.- S.14.

**50.Bibiheybət: köhnə qəsəbənin yeni həyatı** /R.Tahir//Xalq qəzeti.-2014.- 14 yanvar.- S. 3.

**51.Biləcəri:** qədim qəsəbənin yeni növrağı/V.Bayramov//Xalq qəzeti.-2014.- 4 aprel.- S. 6.

**52.Kənd və eyni adlı adalar-Zirə...** /Bəxtiyar //Azərbaycan dünyası: beynəlxalq jurnal.-2014.-mart.- №109.- S.36-41.

**53.Kənddən başlayan şəhər tarixi:** /Elçin Vələdoğlu //Respublika.- 2014.- 26 yanvar.- S.5.

**54.Qobu xalçaları** /Ü.Məmmədova, T. Babayeva //Azərbaycan xalçaları.-2014.- № 12.- S.28-41.

**55.Novxanıda Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinə həsr edilmiş elmi praktik konfrans keçirilmişdir** //Azərbaycan.-2014.- 31 yanvar.- S.5.

**2016**

**56.Maarifçilik işığına uzanan yol-Nardaran** //İki sahil.- 2016.- 2 fevral.- S.18.

**2017**

**57.Əhmədli-şəhər içində "kənd"in yeni növrağı** /İlqar Rüstəmov//Xalq qəzeti.-2017.- 1 fevral.- S.6.

**58.Bakı şəhəri Sabunçu rayonunun Sabunçu, Maştağa və Suraxanı rayonunun Əmircan, Bülbülə və Qaraçuxur qəsəbələrində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında:** Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 28 dekabr 2017-ci il //Azərbaycan.-2017.-29 dekabr.- S.2.

**2018**

**59.Bakı şəhərinin Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbail, Pirallahı, Xəzər** rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 25 fevral tarixli 86 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında: Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı: № 56; 19 fevral 2018-ci il /A. Rasizadə //Xalq qəzeti.-2018.- 22 fevral.- S.2.

**60.Tarixi dəqiq məlum olmayan Ramana qalası uça bilər** /Q. Xaçınçaylı //Həftə içi.-2018.- 18 may.- S.7.

**61.Tarixin közərən ocağı - Zirə** /A.Rüstəmli //525-ci qəzet.- 2018.- 16 may.- S.6.

**62.Sabunçu rayonunun Maştağa-Nardaran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında**: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 iyun 2018-ci il //Azərbaycan.-2018.-7 iyun.- S.4.

## İnternet resursları:

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az

# Bakı kəndləri

(tövsiyə biblioqrafiyası)

**Kompüter yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@lib.az**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 03
Çapa imzalanmışdır:
Tirajı:100
Pulsuz.